Azərbaycan Respublikası Təhsil Nazirliyinin
2022-ci il 11 aprel tarixli F-184 nömrəli əmrinə

1 nömrəli əlavə

**Regional Təhsil İdarəsinin Nümunəvi**
**ƏSASNAMƏSİ**

## I. Ümumi müddəalar

1.1. Regional Təhsil İdarəsi (bundan sonra - idarə) Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 664 nömrəli Sərəncamına əsasən yaradılmışdır və Təhsil Nazirliyinin strukturuna daxil olan qurumdur.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikası Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Təhsil Nazirliyinin (bundan sonra - Nazirlik) normativ hüquqi aktlarını, Azərbaycan Respublikası təhsil nazirinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. İdarə səlahiyyətləri daxilində bu Əsasnamədə nəzərdə tutulan vəzifələri yerinə yetirərkən və hüquqları həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı fəaliyyət göstərir.

1.4. İdarənin saxlanılması xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsindən və ya qanunla nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.5. İdarə müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.6. İdarənin Əsasnaməsi, strukturu, ştat cədvəli və xərclər smetası Nazirlik tərəfindən təsdiq edilir.

## II. İdarənin fəaliyyət istiqamətləri

2.1. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. təhsil sahəsi üzrə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak edir;

2.1.2. tabeliyində olan məktəbəqədər, ümumi, məktəbdənkənar təhsil müəssisələrində (bundan sonra – təhsil müəssisləri) təhsilin dövlət standartlarına uyğun təşkilinə nəzarət edir;

2.1.3. region üzrə icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarəti təmin edir;

2.1.4. vətəndaşların təhsil almaları ilə bağlı konstitusiya hüquqlarını qorumaq məqsədilə təhsildə bərabər imkanların yaradılmasına nail olmaq üçün tədbirlər görür;

2.1.5. təhsil müəssisələrinə tədris-metodiki rəhbərliyi həyata keçirir;

2.1.6. təhsil müəssisələrinin fəaliyyətini əlaqələndirir;

2.1.7. təhsil innovasiyalarının və texnologiyalarının, qabaqcıl pedaqoji təcrübələrin və idarəetmə üsullarının təhsil müəssisələrində tətbiqini təmin edir;

2.1.8. səlahiyyətləri çərçivəsində regionda təhsil sahəsində maarifləndirmə işini həyata keçirir;

2.1.9. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. İdarənin vəzifələri

3.1. İdarə fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. təhsil sahəsi üzrə dövlət proqramlarının və strategiyaların icrasını səlahiyyətləri daxilində həyata keçirmək;

3.1.2. təhsil müəssisələrinin fəaliyyətini əlaqələndirilməsi işini təşkil etmək və təhsil müəssisələrinə tədris-metodik rəhbərliyi həyat keçirmək;

3.1.3. təhsil müəssisəsində metodik və psixoloji xidmətlərin təşkilinə nəzarət etmək, metodik şuraların fəaliyyətini əlaqələndirmək;

3.1.4. təhsil müəssisələri tərəfindən qabaqcıl təhsil texnologiyalarının və innovativ idarəetmə üsullarının tətbiqi üçün tədbirlər görmək;

3.1.5. təhsil müəssisələrində təlim-tədris prosesinin keyfiyyətinə, təhsilin dövlət standartlarına uyğun təşkilinə nəzarət etmək;

3.1.6. təhsil müəssisələrində daxili keyfiyyət təminatı sisteminin yaradılmasına və fəaliyyətinə nəzarət etmək;

3.1.7. təhsil müəssisələrində məktəb sənədlərinin aparılması və saxlanması qaydalarına riayət olunmasına nəzarət etmək;

3.1.8. uşaqların hüquq və maraqlarını müdafiə etmək, məktəbyaşlı uşaqların icbari ümumi orta təhsilə cəlb olunmasına nəzarət etmək, maraqlı tərəflərlə birgə bu sahədə fəaliyyəti təşkil etmək;

3.1.9. sağlamlıq imkanları məhdud şəxslərin bacarıq və imkanlarını nəzərə almaqla onların müvafiq formada təhsil almalarını təşkil etmək;

3.1.10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 aprel tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmiş "Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamə"yə uyğun olaraq rayon, şəhər psixoloji-tibbi-pedaqoji komissiyalarını yaratmaq, onların fəaliyyətini müvafiq qaydalara uyğun təşkil etmək və fəaliyyətinə nəzarət etmək;

3.1.11. evdə və fərdi təhsilin təşkili üçün müvafiq tədbirləri həyata keçirmək;

3.1.12. ümumi təhsil müəssisələrində xüsusi istedada malik şagirdlərin istedadının aşkar edilməsinə, inkişafına, habelə onların müxtəlif səviyyəli müsabiqələrdə, olimpiadalarda və yarışlarda iştirakına əlverişli şərait yaratmaq üçün tədbirlər görmək;

3.1.13. region üzrə məktəbəqədər və məktəbyaşlı uşaqların mənəvi və fiziki inkişafının, onların müxtəlif yaradıcılıq tələbatının təmin edilməsi üçün tədbirlər görmək;

3.1.14. şagirdlərin zərərli vərdişlərdən qorunması, onlar arasında sağlam həyat tərzinin təbliği istiqamətində maarifləndirmə tədbirləri görmək;

3.1.15. Azərbaycan dilini zəif bilən təhsilalanlar üçün hazırlıq sinifləri və kurslarının açılmasını və onlara ana dilinin tədrisi üçün müvafiq şəraitin yaradılmasını təmin etmək;

3.1.16. eksternat təhsilalma forması üzrə imtahanların keçirilməsini təmin etmək;

3.1.17. uşaqların (şagirdlərin) təhsil müəssisələrinə qəbulu və yerdəyişməsi prosesinin həyata keçirilməsini təşkil etmək;

3.1.18. region üzrə qəyyumluq və himayə orqanları ilə əməkdaşlıq etmək və onlara metodiki köməklik göstərmək;

3.1.19. özəl və bələdiyyə ümumi təhsil müəssisələrinə metodiki kömək göstərmək;

3.1.20. ümumi təhsil müəssisələrində təhsilalanların peşəyönümü işinin təşkilinə nəzarət etmək;

3.1.21. təhsil müəssisələrində psixoloji, iaşə və tibb xidmətlərinin qanunvericiliyin tələblərinə uyğun təşkilinə, sağlam, təhlükəsiz öyrənmə mühitini təmin edilməsinə nəzarət etmək;

3.1.22. təhsilalanları dövlət təminatında olan təhsil müəssisələrinin təlim vasitələri ilə, ərzaq, yemək, geyim, ayaqqabı, zəruri avadanlıq və fərdi texniki vasitələrlə təmin edilməsi üçün zəruri tədbirlər görmək;

3.1.23. təhsil müəssisələrində pedaqoji kadrlara olan tələbatı müəyyən etmək;

3.1.24. təhsilverənlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görmək və təhsilverənlərin fəaliyyətini monitorinq etmək;

3.1.25. təhsilin məzmunu, qiymətləndirilməsi və idarəolunması, təlim strategiyaları və metodikalarının keyfiyyətcə yaxşılaşdırılması sahəsində təhsil müəssisələri tərəfindən tətbiq edilən yenilikləri, qabaqcıl pedaqoji təcrübələri və innovativ idarəetmə üsullarını öyrənmək;

3.1.26. təhsil müəssisələrində siniflər üzrə şagird sıxlığı normalarına əməl edilməsinə, dərs bölgüsünün düzgün aparılmasına, dərsdənkənar və dərnək məşğələlərinin düzgün təşkilinə nəzarəti təmin etmək;

3.1.27. qüvvədə olan normativ hüquqi sənədlərin tələblərinə riayət etməklə tabeliyində olan təhsil müəssisələrində əlavə siniflərin və qrupların açılmasını təşkil etmək;

3.1.28. təhsil müəssisələrinin dərsliklər, dərs vəsaitləri, tədris-metodik, informasiya-kommunikasiya texnologiyaları və digər texniki vasitələrlə təmin olunması üçün zəruri tədbirlər görmək;

3.1.29. təhsil müəssisələrinin təsərrüfat mallarına olan tələbatını, təmir və tikinti ehtiyaclarını müəyyən etmək və onun qarşılanması üçün müvafiq tədbirlər görmək;

3.1.30. təhsil müəssisələrində təhsilin keyfiyyət səviyyəsini öyrənmək məqsədi ilə monitorinqlər keçirmək;

3.1.31. təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasının tələblərinə uyğun infrastrukturun yaradılması və hər bir təhsil müəssisəsinin təhlükəsiz internetə çıxışının təmin edilməsi üçün zəruri tədbirləri görmək;

3.1.32. təhsil müəssisələrinin idarəetmə funksiyalarının Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi vasitəsi ilə icrasının təmin edilməsinə nəzarət etmək;

3.1.33. "Rəsmi statistika haqqında" "Büdcə sistemi haqqında" və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada statistik və maliyyə hesabatlarını hazırlayaraq təqdim etmək;

3.1.34. daxil olan müraciətlərə Azərbaycan Respublikasının "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.35. idarə üzrə mühasibat uçotunun "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun təşkilini həyata keçirmək;

3.1.36. idarənin və təhsil müəssisələrinin balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətləri "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirmək;

3.1.37. idarə və təhsil müəssisələri tərəfindən əmək münasibətlərinin rəsmiləşdirilməsində qanunvericiliyin tələblərinə riayət olunmasına, əmək müqaviləsi üzrə elektron bildirişlərin bir iş günü ərzində elektron informasiya sistemində qeydiyyata alınmasına nəzarəti təmin etmək;

3.1.38. öz fəaliyyəti barədə ictimaiyyəti "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada məlumatlandırmaq;

3.1.39. idarəyə ayrılan dövlət vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.40. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.41. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

3.1.42. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

## IV. İdarənin hüquqları

4.1. İdarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

4.1.2. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.3. idarənin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər vermək;

4.1.4. təsdiq edilmiş nomenklatur çərçivəsində kadrları vəzifəyə təyin və ya vəzifədən azad etmək, onlar barəsində qanunvericiliklə müəyyən olunmuş qaydada mükafatlandırma, həvəsləndirmə və intizam tənbehi tədbirləri görmək;

4.1.5. təhsilverənlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, ehtiyaclarına uyğun onların əlavə təhsilə və ya təlimlərə cəlb olunması üçün müvafiq tədbirlər görmək;

4.1.6. idarənin strukturuna daxil olmayan tabeliyindəki qurumlarla bağlı Nazirliyə təkliflər vermək;

4.1.7. təhsil müəssisələri və strukturuna daxil olmayan tabeliyində olan qurumlar üzrə dövlət büdcəsindən ayrılan vəsaitlərin və büdcədənkənar gəlirin sərəncamçısı olaraq səlahiyyətləri daxilində maliyyə vəsaitini "Azərbaycan Respublikasının vahid büdcə təsnifatı"nın tələbləri gözlənilməklə bölüşdürmək, ştat və tarifləşmə cədvəllərini təsdiq etmək, ayrılmış vəsaitlərin həddi nəzərə alınmaqla işçilərin vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş əlavələrin, maddi yardım və mükafatların, eləcə də digər zəruri saxlanma xərclərinin ödənilməsini təmin etmək;

4.1.8. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. İdarənin fəaliyyətinin təşkili

5.1. İdarənin fəaliyyətinə Azərbaycan Respublikasının təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarənin müdiri rəhbərlik edir.

5.2. İdarənin müdiri ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. İdarənin Azərbaycan Respublikasının təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən ~~bir~~ müavini *(müavinləri)* vardır.

5.4. İdarənin struktur bölmə rəhbərləri Azərbaycan Respublikasının təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. İdarənin müdir müavini ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.6. İdarənin müdiri:

5.6.1. İdarənin fəaliyyətini təşkil edir və ona rəhbərliyi həyata keçirir;

5.6.2. İdarənin müdir müavini və struktur bölmə rəhbərləri istisna olmaqla, digər işçiləri vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.6.3. İdarənin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcbur olan əmr, sərəncam və göstərişlər verir;

5.6.4. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində idarənin ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq üçün Nazirliyə təqdim edir;

5.6.5. idarənin xərclər smetasına uyğun olaraq ona ayrılan vəsaitin istifadəsinə dair sərəncam verir;

5.6.6. strukturuna daxil olmayan tabeliyindəki qurumların əsasnaməsini, strukturunu, işçilərinin say həddini, əməkhaqqı fondunu və xərclər smetalarını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

5.6.7. təhsil müəssisələrinin nizamnamələrinə dair rəy verir və təsdiq olunması üçün Nazirliyə təqdim edir, struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

5.6.8. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində təhsil müəssisələrinin ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetalarını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

5.6.9. təhsil müəssisələrinin rəhbərlərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.6.10. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.